*Təhsil millətin gələcəyidir!*

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

14 mart 2026-cı il №10 (9165) www.muallim.edu.az muallim@media.edu.az

# Təhlükəsizlik, sabitlik və müdafiə məsələləri hər bir ölkənin gündəliyində bir nömrəli prioritet olmalıdır

Builki forumun gündəliyi çox genişdir. Forum bir çox məsələləri əhatə edir, lakin əminəm ki, müzakirələr zamanı xüsusi diqqət bölgəmizdəki və dünyadakı mövcud vəziyyətə yönələcək. Zənnimcə, indi heç vaxt olmadığı qədər aydındır ki, təhlükəsizlik, sabitlik və müdafiə məsələləri hər bir ölkənin gündəliyində bir nömrəli prioritet olmalıdır. Çünki bunlar olmadan qalan bütün məsələlər tamamilə mənasızdır. Öz inkişafı uğrunda illər, onilliklər ərzində səy göstərmiş ölkələr indi ciddi risklərlə üzləşirlər. Təhlükəsizlik əsas amildir və biz səylərimizi məhz bu istiqamətdə birləşdirməliyik...

Daha sonra 2020-ci ilin 44 günlük Vətən Müharibəsi zamanı ərazilərimizi güc vasitəsilə azad etmək təcrübəsini qazandıq və düşünürəm ki, bu da mühüm göstəricidir. Əgər sülh yolu ilə həll üçün bütün ümid itir, ancaq həqiqət və ədalət, beynəlxalq hüquq sizin tərəfinizdədirsə, sülhə nail olmaq üçün gücdən istifadə etmək zəruridir. Məhz belə də oldu. Biz əvvəlcə güc tətbiq etməklə, daha sonra isə siyasi yollarla Ermənistanla sülhə nail olduq. Bu da müasir tarixdə, - müasir dedikdə son onillikləri nəzərdə tuturam, - nadir bir təcrübədir - ölkə özü güc tətbiq edərək suverenliyini və ərazi bütövlüyünü bərpa etdi.




*Prezident İlham Əliyevin "Keçid dövründə olan dünyada fikir ayrılıqlarının aradan qaldırılması" mövzusunda martın 12-də keçirilən XIII Qlobal Bakı Forumundakı çıxışından*

# TƏHSİL QARABAĞA QAYIDIR



## Elm və təhsil naziri Emin Əmrullayev

Xankəndi və Xocalıda təhsil müəssisələrində olub

Xankəndi şəhəri 1 nömrəli körpələr evi-uşaq bağçasında olub

İşğaldan azad olunmuş ərazilərdə çalışan müəllimlərlə görüşüb

Şuşada tədris prosesini izləyib və vətəndaşları qəbul edib

Bax səh.2



# Süni intellekt həyatımızda




2022-ci ilin sonlarında "ChatGPT 3.5" ortaya çıxdıqdan sonra generativ süni intellekt cəmiyyət üçün həm maraq, həm də narahatlıq mənbəyinə çevrildi. Daha çox insan bu texnologiyadan istifadə etməyə başladıqca, onun psixi sağlamlığa mümkün zərərləri haqqında xəbərlər də ortaya çıxmağa başladı.

Bax səh.3

# Sabahın alimi

# AĞILLI AYAQQABILARIN SİRRİ



Lənkəran rayonu Boladi kənd Nahir Axundov adına 1 nömrəli tam orta ümumtəhsil məktəbinin "Əsgəri xəbərdarlıq etməklə minadan qoruyan smart ayaqqabı" adlı layihəsi "Sabahın alimləri" XV Respublika layihə müsabiqəsində qızıl medal qazanıb.

Bax səh.4

## Səyyah-müəllimin hekayəsi

Bax səh.4

## Böyük Britaniyanın Stratklayd Universitetinin məzunu

Bax səh.5

## Birinci Türkoloji Qurultaya baxış

Bax səh.6

## Fiziki qüsurlu uşaqlarla iş

Bax səh.8

# TƏHSİL QARABAĞA QAYIDIR

## İşğaldan azad olunmuş ərazilərdə məktəblərin fəaliyyətinin bərpası, müasir infrastrukturun yaradılması və keyfiyyətli təhsil mühitinin formalaşdırılması istiqamətində ardıcıl və sistemli işlər həyata keçirilir

## Elm və təhsil naziri Xankəndi və Xocalıda təhsil müəssisələrində olub









**Martın 10-da elm və təhsil naziri Emin Əmrullayev Xankəndi və Xocalı şəhərlərinə səfəri çərçivəsində bir sıra təhsil müəssisələrində tədris prosesi və yaradılmış şəraitlə yaxından tanış olub.**

Nazir ilk olaraq Xankəndi şəhərinin Kərkicahan qəsəbəsində yerləşən 1 nömrəli tam orta məktəbdə olub. Məktəbdə dərs prosesini izləyən nazir burada yaradılan müasir tədris mühiti ilə tanış olub, müəllim və şagirdlərlə söhbət edib.

Görüş zamanı işğaldan azad olunmuş ərazilərdə məktəblərin fəaliyyətinin bərpası, müasir infrastrukturun yaradılması və keyfiyyətli təhsil mühitinin formalaşdırılması istiqamətində ardıcıl və sistemli işlər həyata keçirildiyi vurğulanıb.

Səfər çərçivəsində nazir Xankəndi şəhəri 1 nömrəli körpələr evi-uşaq bağçasında da olub. Bağçada təlim-tərbiyə prosesinin təşkili ilə tanış olan nazir həmçinin uşaqların iştirakı ilə təşkil olunan Novruz şənliyini izləyib.

Daha sonra nazir Xocalı şəhəri 1 nömrəli tam orta məktəbdə tədris prosesini izləyib, müəllim və şagird kollektivi ilə görüşüb, burada yaradılmış şəraitlə tanış olub.

Səfər çərçivəsində Emin Əmrullayev Xocalı şəhəri 1 nömrəli tam orta məktəbin Uşaqlarla məktəbdənkənar və sinifdənxaric tərbiyə işi üzrə təşkilatçısı Nazilə Məmişovanın ailəsini də ziyarət edib. Bildirilib ki, Nazilə Məmişovanın atası və qardaşı Vətən uğrunda şəhid olublar. Nazir görüş zamanı şəhidlərin xatirəsinin hər zaman böyük ehtiramla yad edildiyini və onların Vətən uğrunda göstərdiyi qəhrəmanlığın heç vaxt unudulmayacağını vurğulayıb.



## Emin Əmrullayev işğaldan azad olunmuş ərazilərdə çalışan müəllimlərlə görüşüb





**Elm və təhsil naziri Emin Əmrullayev martın 10-da Ağdam şəhəri 1 nömrəli tam orta ümumtəhsil məktəbində işğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərən təhsil müəssisələrinin müəllimləri ilə görüş keçirib.**

Sözügedən təhsil müəssisələrinin rəhbər heyətinin də iştirak etdiyi görüşdə nazir çıxışı zamanı işğaldan azad olunmuş ərazilərdə müasir tədris mühitinin yaradılması və müəllimlərin peşə fəaliyyətini dəstəkləyəcək şəraitin formalaşdırılması istiqamətində görülən işləri qeyd edib.

Nazir həmçinin məktəb-valideyn əməkdaşlığının gücləndirilməsinin əhəmiyyətini vurğulayıb. Qeyd olunub ki, təhsil işçilərinin peşəkar potensialının artırılması işğaldan azad edilmiş ərazilərdə təhsil sisteminin dayanıqlı inkişafının əsas amillərindən biridir.

Elm və təhsil naziri müəllimlərin qayğı və problemlərini, səsləndirilən təklifləri dinləyib, onların səylərini yüksək qiymətləndirərək Böyük Qayıdış çərçivəsində təhsil sahəsinin inkişafına verdikləri töhfələrin əhəmiyyətini xüsusi vurğulayıb.

Görüşdə yaradılmış təhsil infrastrukturu və qarşıda duran əsas vəzifələr, eyni zamanda tədrisin keyfiyyəti, innovativ tədris metodlarının tətbiqi və müasir təhsil proqramlarının uğurla icrası ilə bağlı vacib məqamlar müzakirə olunub.

Sonda qeyd olunub ki, işğaldan azad olunmuş ərazilərdə keyfiyyətli və dayanıqlı təhsil mühitinin formalaşdırılması istiqamətində həyata keçirilən tədbirlər bundan sonra da davam etdiriləcək.

Görüşdən sonra Ağdam şəhəri 1 nömrəli tam orta ümumtəhsil məktəbində yaradılmış şərait, eləcə də STEAM Mərkəzi ilə tanışlıq olub.

## Həssas yanaşma, vətəndaş məmnunluğu



**Elm və təhsil naziri Şuşada vətəndaşları qəbul edib**

**Martın 11-də elm və təhsil naziri Emin Əmrullayev Şuşa şəhərində vətəndaş qəbulu keçirib.**

Qəbulda Şuşa, Xankəndi və Xocalı sakinləri iştirak ediblər.

Qəbul zamanı vətəndaşlar iş yerinin dəyişdirilməsi, işə qəbul, sertifikatlaşdırma və digər məsələlərlə bağlı müraciətlər ediblər.

Elm və təhsil naziri qəbula yazılmış vətəndaşları dinləyib, müraciətlərin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin aidiyyəti qurumlarının rəhbərlərinə tapşırıqlar verib.

## Nazir Şuşada tədris prosesini izləyib





**Martın 11-də elm və təhsil naziri Emin Əmrullayev Şuşa şəhəri 1 nömrəli tam orta məktəbdə olub.**

Nazir məktəbdə yaradılmış şərait və tədris prosesi ilə yaxından tanış olub, dərsləri izləyib, müəllim və şagird kollektivi ilə fikir mübadiləsi aparıb.

Daha sonra məktəbin STEAM mərkəzinə baxış keçirilib. Nazir şagirdlərin hazırladıqları layihələrlə tanış olub, onların innovativ ideyalarını dinləyib və bu istiqamətdə əldə etdikləri nailiyyətləri yüksək dəyərləndirib.

Sonda şagirdlərin ifasında Novruz bayramına həsr olunmuş şənlik proqramı təqdim edilib.

# Nazir müavini Firudin Qurbanov Bərdədə vətəndaşları qəbul edəcək




**Elm və təhsil nazirinin müavini Firudin Qurbanov 3 aprel tarixində Bərdə şəhərində vətəndaşları qəbul edəcək.**

Qəbulda Bərdə və Ağdam sakinləri iştirak edə bilərlər.

Adları çəkilən rayonların sakinləri 19 mart (saat 18:00-dək) tarixinədək Elm və Təhsil Nazirliyinin Çağrı Mərkəzinin 146 — 11 nömrəli telefonuna (yalnız iş günləri və saatları ərzində) zəng etməklə qəbula yazıla bilərlər. Bununla yanaşı, nazirliyin rəsmi saytının https://edu.gov.az/az/contact_us bölməsinə elektron formada və ya +994 51 206 78 48 nömrəsinə "WhatsApp" vasitəsilə müraciət göndərmək mümkündür.

Nəzərinizə çatdırırıq ki, qəbulda iştirak üçün qeydiyyat mütləqdir.

# Süni intellekt həyatımızda

## Süni intellektdən istifadə depressiya ilə necə əlaqəlidir?

**Harvard Tibb Məktəbi**

**2022-ci ilin sonlarında "ChatGPT 3.5" ortaya çıxdıqdan sonra generativ süni intellekt cəmiyyət üçün həm maraq, həm də narahatlıq mənbəyinə çevrildi. Daha çox insan bu texnologiyadan istifadə etməyə başladıqca, onun psixi sağlamlığa mümkün zərərləri haqqında xəbərlər də ortaya çıxmağa başladı. Bu narahatlıqlara çatbotların intihar riskini artıra bilməsi və ya sayıqlamaları (delusiyaları) gücləndirməsi kimi ehtimallar daxildir. Tədqiqatçılar süni intellekt istifadəsi ilə depressiya və təcridolunma arasında əlaqələr tapmış, eyni zamanda psixi sağlamlıq mövzularını müzakirə etmək üçün öyrədilmiş çatbotların potensial faydalarını da qeyd etmişlər. Harvard Tibb Məktəbindən aparıcı müəllif dr. Roy Perlis və Harvard Kennedi Məktəbinin qlobal kommunikasiya professoru Metyu Baumun da daxil olduğu həmmüəlliflər tərəfindən aparılan yeni araşdırma amerikalı yetkinlərin süni intellektdən necə və nə qədər istifadə etməsi ilə onların depressiya simptomları göstərmə dərəcəsi arasındakı əlaqəni araşdırıb.**



### Süni intellektdən daha çox istifadə daha yüksək depressiya, narahatlıq və əsəbiliklə əlaqələndirilir

"JAMA Network Open" jurnalında dərc olunan "Generative AI Use and Depressive Symptoms Among U.S. Adults" adlı son məqalədə tədqiqatçılar 20.000-dən çox insanın iştirak etdiyi sorğunu təhlil ediblər. Araşdırmada irq və gəlir kimi demoqrafik xüsusiyyətlər, həmçinin narahatlıq və depressiyanı ölçən skrininq anketlərinin cavabları da nəzərə alınıb.

Onlar müəyyən ediblər ki, süni intellektdən gündəlik və ya tez-tez istifadə daha yüksək səviyyədə depressiya simptomları ilə əhəmiyyətli şəkildə əlaqəlidir. Süni intellektdən hər gün istifadə edən insanlar arasında ortasəviyyəli depressiya bildirmə ehtimalı 30% daha yüksək olub. Tədqiqatçılar narahatlıq və əsəbilik simptomları üçün də oxşar nəticələr müşahidə ediblər.

Gündəlik süni intellekt istifadə edən 45-65 yaşlı insanlar üçün ən azı ortasəviyyəli depressiya bildirmə ehtimalı 50% daha çox olub.

### Süni intellektdən tez-tez istifadə edən qruplar

Tədqiqatçılar müəyyən ediblər ki, tez-tez süni intellektdən istifadə bəzi qruplarda daha geniş yayılıb. Bunlara daxildir:

- Kişilər
- Gənc yetkinlər
- Şəhərlərdə yaşayan insanlar
- Daha yüksək təhsil səviyyəsinə malik şəxslər
- Daha yüksək gəliri olan insanlar.

Depressiya simptomları süni intellekti şəxsi məqsədlərlə istifadə edənlərdə və xüsusilə 25-44 yaş arası insanlarda ən yüksək səviyyədə müşahidə olunub.

### Süni intellekt və əhvali-ruhiyyə arasındakı əlaqəni anlamaqda növbəti addım nədir?

Tədqiqatçılar qeyd edirlər ki, iki randomizə edilmiş klinik sınaq sosial mediadan müvəqqəti imtinanın bəzi insanlar üçün müsbət (lakin çox kiçik) təsir göstərə biləcəyini göstərib. Müəlliflər süni intellekt istifadəsi ilə bağlı da oxşar yanaşmaların araşdırılmasını mümkün hesab edirlər.

Araşdırmanın nəticələri səbəb-nəticə əlaqəsini deyil, yalnız statistik əlaqəni göstərdiyinə görə tədqiqatçılar həmçinin süni intellekt istifadəsi ilə insanların əhvali-ruhiyyəsi arasında mümkün səbəb əlaqəsinin daha dərindən araşdırılmasını təklif edirlər.

**Oruc MUSTAFAYEV**

**Nəticə**

**- Süni intellektdən hər gün istifadə edən insanlarda depressiya əlamətləri daha çox görünür.**
**- Belə insanlar arasında ortasəviyyəli depressiya ehtimalı təxminən 30% daha yüksəkdir.**
**- 45-65 yaşlı gündəlik istifadəçilərdə bu ehtimal təxminən 50% daha yüksək olub.**
**- Onlarda narahatlıq və əsəbilik də daha çox müşahidə olunub.**

# Sosial şəbəkə və oyunlar psixologiyanı necə dəyişir?

**Son illərdə Elm və Təhsil Nazirliyi tərəfindən məktəblərdə psixoloji xidmətin gücləndirilməsi istiqamətində mühüm addımlar atılıb. Lakin müasir dövrdə informasiya bolluğu, sosial təzyiqlər, rəqəmsal texnologiyaların sürətli inkişafı, sosial şəbəkələrin geniş yayılması uşaqların psixoloji durumunu daha da həssaslaşdırıb. Bu səbəbdən məktəbdə psixoloji xidmətin rolu əvvəlki dövrlərlə müqayisədə daha da aktuallaşıb.**



### Şagirdlər arasında daha çox müşahidə edilən problemlər

Mövzu ilə bağlı fikirlərini bölüşən Salyan şəhəri 9 nömrəli tam orta ümumtəhsil məktəbinin psixoloqu Arzu Hacızadə bildirir ki, məktəbdə sağlam psixoloji mühit təhlükəsizlik və etibar hissinin mövcudluğu, qarşılıqlı hörmət və əməkdaşlıq, aqressiya və zorakılıq hallarının minimum səviyyədə olması, şagirdlərin fərdi xüsusiyyətlərinə və fikirlərinə hörmətlə yanaşılması ilə xarakterizə olunur. Belə bir mühit şagirdlərin akademik nailiyyətlərinə, sosial bacarıqlarına və psixoloji sağlamlığına müsbət təsir göstərir.

Psixoloq qeyd edir ki, hazırda şagirdlər arasında daha çox müşahidə olunan problemlər imtahan stresi, diqqət və motivasiya çatışmazlığı, sosial şəbəkə və telefon asılılığı, ünsiyyət çətinlikləri, emosional həssaslıq və narahatlıq hallarıdır.

Bu istiqamətdə məktəbdə müntəzəm psixodiaqnostik müayinələr aparılır, fərdi və qrup korreksiya məşğələləri təşkil edilir, adaptasiya problemi yaşayan uşaqlara dəstək göstərilir. Eyni zamanda valideyn və müəllimlər üçün seminar və konsultasiyalar keçirilərək maarifləndirmə işi gücləndirilir. Bütün bu tədbirlərin əsas məqsədi məktəbdə sağlam psixoloji mühitin qorunması və şagirdlərin psixoloji rifahının təmin edilməsidir.

### "Uşaqlarda məsuliyyətli rəqəmsal davranış mədəniyyəti formalaşdırılmalıdır"

Bəs görəsən sosial şəbəkələr, internet oyunları, eləcə də bəzi seriallar şagirdlərin psixoloji durumuna necə təsir göstərir? Psixoloqun öz müşahidələri nəticəsində gəldiyi qənaət necədir?

Arzu Hacızadə bildirir ki, sosial şəbəkə və internet oyunları şagirdlərin psixoloji vəziyyətinə həm müsbət, həm də mənfi təsir göstərə bilər. Lakin nəzarətsiz və uzunmüddətli istifadə bir sıra psixoloji çətinliklərə səbəb olur.

Psixoloq öz müşahidəsinə əsaslanaraq bildirir ki, xüsusilə aşağıdakı hallar şagirdlərdə daha çox müşahidə edilir:

Diqqət dağınıqlığı və dərs motivasiyasının azalması, yuxu pozuntuları, asılılıq davranışı, zorakı məzmunlu oyun və serialların təsiri ilə aqressiv davranışlar, özünü başqaları ilə müqayisə nəticəsində özünəgüvənin azalması, sosial təcrid və real ünsiyyət bacarıqlarının zəifləməsi.

Onun sözlərinə görə, son illərdə uşaqlarda səbir səviyyəsinin azalması, hər şeyin tez əldə olunmasına meyillilik, diqqət müddətinin qısalması daha qabarıq şəkildə özünü göstərir. Sosial şəbəkələrin təsiri ilə emosional həssaslıq artıb, xüsusilə özünüqiymətləndirmə ilə bağlı problemlər çoxalıb. Virtual ünsiyyət real ünsiyyəti qismən əvəz edir ki, bu da sosial bacarıqların inkişafına mənfi təsir göstərə bilər.

Psixoloq vurğulayır ki, valideyn nəzarəti, düzgün vaxt bölgüsü və maarifləndirici yanaşma olduqda rəqəmsal resurslar uşaqların inkişafına müsbət töhfə verə bilər. Əsas məsələ balansın qorunması və uşaqlarda məsuliyyətli rəqəmsal davranış mədəniyyətinin formalaşdırılmasıdır.

## Şagirdlərin baxışı



### Şagirdlər bu barədə nə düşünürlər?

#### "Gündə bir saat oyun oynayır, balansı qoruyuram"

Biləsuvar rayonu Dadaş Dadaşov adına Zəhmətabad kənd ümumi orta ümumtəhsil məktəbinin 8-ci si-



nif şagirdi Mehdi Talıblının fikrincə, tərbiyəvi məzmunlu seriallar istirahət və rahatlıq verir, fərqli ölkələrin mədəniyyəti ilə tanış olmağa imkan yaradır. Sosial şəbəkələr isə doğmalarla əlaqə qurmağa və dərslərlə bağlı məlumat əldə etməyə kömək edir.

Lakin o, mənfi tərəflərin də az olmadığını vurğulayır: seriallar vaxt itkisinə, dərsdən yayınmaya və uyğun olmayan davranışlara səbəb ola bilər. Sosial şəbəkələr asılılıq yaradır, yuxu rejimini pozur, görmə qabiliyyətinə mənfi təsir göstərir və uşaqları real ünsiyyətdən uzaqlaşdırır. O, gündə təxminən bir saat oyun oynadığını və valideynlərinin nəzarəti sayəsində balansı qorumağa çalışdığını bildirir.

#### İnformasiya əldə etmək üçün internetdən istifadə edir

Şirvan şəhəri Sadıq Hüseynov adına 1 nömrəli tam orta ümumtəh-



sil məktəbinin 8-ci sinif şagirdi İlahə Məmmədli isə məsələyə daha realist yanaşır. Onun fikrincə, seriallar və sosial şəbəkələr çox vaxt insanlarda saxta reallıq hissi yaradır. Şagirdlər sosial mediada təqdim olunan "mükəmməl həyat" görüntülərini öz real həyatları ilə müqayisə etdikdə psixoloji gərginlik və özünəqapanma halları yarana bilər.

İlahə informasiya əldə etmək üçün internetdən istifadə etsə də, zamanını nəzarətdə saxlamağa çalışdığını və öz davranışlarını daim tənqidi şəkildə qiymətləndirdiyini vurğulayır.



Digər müsahibimiz Salyan şəhəri 9 nömrəli tam orta ümumtəhsil məktəbinin 11-ci sinif şagirdi Qurbanəli Dadaşov isə hesab edir ki, bu vasitələrin təsiri əsasən istifadə səviyyəsindən asılıdır. Onun sözlərinə görə, həddindən artıq sosial şəbəkə istifadəsi baş ağrısı və beyin yorğunluğuna səbəb olur. Buna görə də telefondan və sosial mediadan mümkün qədər uzaq durmağa, vaxtı düzgün bölüşdürməyə üstünlük verir.

**Məktəbdə sağlam psixoloji mühitin formalaşdırılması həm psixoloqun, həm müəllimlərin, həm valideynlərin, həm də şagirdlərin birgə məsuliyyətidir. Rəqəmsal dünyanın təqdim etdiyi imkanlardan düzgün və məqsədli istifadə edildikdə fayda əldə etmək mümkündür. Lakin nəzarətsiz və həddindən artıq istifadə psixoloji gərginlik, asılılıq və sosial uzaqlaşma kimi problemlərə yol aça bilər.**

**Tural NƏSİROV,**
**Şirvan-Salyan və Mil-Muğan üzrə regional təmsilçi**

# Sabahın alimi



# AĞILLI AYAQQABILARIN SİRRİ

## Layihələri qızıl medal qazanan məktəblilər danışdılar

**Lənkəran rayonu Boladi kənd Nahir Axundov adına 1 nömrəli tam orta ümumtəhsil məktəbinin “Əsgəri xəbərdarlıq etməklə minadan qoruyan smart ayaqqabı” adlı layihəsi “Sabahın alimləri” XV Respublika layihə müsabiqəsində qızıl medal qazanıb.**



“Azərbaycan müəllimi” xəbər verir ki, müsabiqənin milli final mərhələsində təqdim olunan layihələr arasında məktəbin komandasının işi elə ilk gündən mütəxəssis alimlərin və hərbi sənaye üzrə ixtisaslaşmış ekspertlərin xüsusi marağına səbəb olub.

Layihənin elmi rəhbəri məktəbin fizika müəllimi və direktoru Seyran Əliyev, komandanın üzvləri isə X sinif şagirdi Talib Cabbarov və IX sinif şagirdi Elay Mikayıllıdır. Komanda üzvləri layihəni təqdim edərkən müharibədən sonra mina partlayışlarının yaratdığı təhlükəli nəticələrə diqqət çəkiblər. Elay Mikayıllı bildirib ki, mina problemi bu gün də aktual olaraq qalır:

“Vətən müharibəsindən sonra çox sayda mülki vətəndaş mina partlayışına məruz qalıb. Onlardan həlak olanlar və müxtəlif dərəcəli xəsarətlər alanlar var”.

Digər iştirakçı Talib Cabbarov isə layihənin texniki xüsusiyyətləri barədə



məlumat verib. Onun sözlərinə görə, hazırlanan sistem əsgərlərin fərdi təhlükəsizliyini artırmaq məqsədilə ayaqqabının alt hissəsinə yerləşdirilən xüsusi mina detektoru prototipi üzərində qurulub:

“Layihənin sxemini hazırladıq, lazımi detalları kiçik ana lövhəyə yığaraq cihazı ayaqqabının alt hissəsinə yerləşdirdik. Minalanmış ərazidə hərəkət zamanı ayaqqabı torpağa tam təmas etməzdən əvvəl sistem metal mina ehtimalını müəyyən edərək istifadəçiyə səs, vibrasiya və ya işıq siqnalı vasitəsilə xəbərdarlıq edir. Bundan əlavə, piezo element vasitəsilə addım zamanı yaranan enerji elektrik enerjisinə çevrilərək batareyaları doldurur və cihazın fasiləsiz işləməsinə imkan yaradır. Məqsədimiz əsgərin hər addımının təhlükəsiz olmasına töhfə verməkdir”.

**Qeyd edək ki, Lənkəran rayonu Boladi kəndi Nahir Axundov adına 1 nömrəli tam orta ümumtəhsil məktəbi artıq beşinci dəfədir ki, “Sabahın alimləri” müsabiqəsinin finalında iştirak edib. Məktəbin komandası bundan əvvəl də beynəlxalq səviyyədə uğur əldə edib. Belə ki, gənc tədqiqatçılar SAF 2025 Beynəlxalq STEAM Festivalında fərqli layihə ilə çıxış edərək III yerə layiq görülüb və bürünc medal qazanıblar.**

**Nilufər HACILI,**
**Lənkəran-Astara üzrə regional təmsilçi**

# İstər sinif otağı, istərsə də dağ zirvəsi

## Səyyah-müəllimin hekayəsi



**Müəllimlik sadəcə bir ixtisas deyil, öyrətmək, tanıtmaq və sevdirmək missiyasıdır. Bu missiya onu sinif otağından dağ zirvələrinə, məktəb lövhəsindən qayaüstü rəsmlərə, şagird auditoriyasından sosial media izləyicilərinə qədər aparıb. O, bir tərəfdən tarix-coğrafiya müəllimi kimi nəsillərə bilik verib, digər tərəfdən isə Naxçıvanın dağlarını qarış-qarış gəzərək bu torpağın təbii və tarixi sərvətlərini tanıtmağa çalışıb. “Azərbaycan müəllimi” həm müəllim, həm səyyah, həm də təbiət təbliğatçısı olan Hüseyn Cəfərovun, sözün əsl mənasında zirvələrə uzanan həyat hekayəsini təqdim edir. 1962-ci ildə Babək rayonunun Cəhri kəndində anadan olub. Uşaqlıqdan təbiətə xüsusi marağı ilə seçilib. Tarix-coğrafiya sahəsində ali təhsil alması onun həm təbiətə, həm də tarixi abidələrə bağlılığını daha da dərinləşdirib. Hələ uşaqlıq və gənclik dövründə dağlara, meşələrə səyahət edib, heç bir zaman dağlardan ayrı qalmayıb. Ömrünün əksər günlərini billur sulu bulaqların ətrafında, əlçatmaz zirvələrin qoynunda keçirir. Təbiətə olan sevgisi təkcə Naxçıvanla məhdudlaşmayıb, ölkə hüdudlarını da aşıb.**



# Məqsəd öyrətmək, göstərmək, sevdirməkdir

### Ağrı zirvəsinə aparan yol

2023-cü ilin avqust ayında Hüseyn Cəfərov Türkiyənin ən yüksək zirvə nöqtəsi olan Ağrı dağına Türkiyə, İran və Azərbaycandan olan peşəkar alpinistlərlə birlikdə yürüş edib. Bu yürüş təkcə fiziki dözümlülük deyil, həm də iradə və mənəvi güc sınağı idi. O, komandanın bütün üzvlərindən təxminən iki saat yarım daha tez zirvəyə çataraq Azərbaycan bayrağını Ağrı dağının ən uca nöqtəsində dalğalandırıb.

Hüseyn müəllim deyir ki, bu, sadəcə bir zirvə deyil, “mənəvi zirvə” idi. “Ağrı dağının hər iki zirvəsi mənim üçün həmişə arzu və istək olub”.

### “Müəllim öyrədəndir”

Təyinatla işlədiyi Cəlilabad rayonunda və Babək rayonunun Cəhri 1 və 2 nömrəli orta məktəblərində fəaliyyət göstərərkən o, dərslərdə əyani və praktik üsullara üstünlük verib. Deyir ki, həmişə sinif otaqlarının divarları əyani vəsaitlərlə dolu olardı: “Cəlilabadda ilk günlərdə cəmi iki şagird dərsə gəlirdi. Lakin iki həftə keçməmiş kiçik sinif böyüdü. Bəzi dərsləri əyani olsun deyə açıq havada keçdim”.

Onun fikrincə, praktik-əyani vəsaitlə keçilən dərs yerindəcə öyrənilir və yadda qalır: “Bu, təbiətin vəhdətini praktik göstərmək üsuludur. Günlərin, gecə-gündüzün və fəsillərin əmələ gəlmə səbəbini pəncərədən gələn işığın qarşısını kəsərək, qlobus üzərində əlində lampanı yandırmaqla gözlə görüləcək şəkildə izah elədim. Məktəb işçiləri belə bəzən açıq qapıdan dərsləri maraqla izləyirdi”.

### Təbiətdə davam edən müəllimlik

Hüseyn Cəfərov üçün müəllimlik məktəbdə bitmir. “İstər müəllim işləyəndə, istərsə də təbiətdə olanda məqsədim eynidir — öyrətmək, tanıtmaq, sevdirmək”, — deyir.

O, məktəb rəhbərliyi və müəllim kollektivi ilə birlikdə şagirdlərlə Əlincəqala, Nəimi seyrangahı və Çalxanqala kimi məkanlara səyahətlər təşkil edib. Şagirdləri bu yerləri ilk dəfə onun apardığı günlərdə görüb tanıyıblar. Deyir ki, bu səfərlərin təşkili ona asan başa gəlməyib: “Nəticədə, həmin gəzintilər şagirdlərin yaddaşında ən əziz xatirələr kimi qalıb”.

### Ekoloji maarifçilik və sosial media

Hüseyn Cəfərov uzun illərdir ki, Naxçıvanın dağlarını, yaylaqlarını, təbii abidələrini və az tanınan ərazilərini gəzərək həmin məkanları vizual və mətn əsaslı sənədləşdirir. Onun məqsədi yalnız səyahət etmək deyil, regionun ekoturizm potensialını göstərmək, gənclərdə təbiətə bağlılıq şüurunu gücləndirməkdir.

O, xüsusilə Gəmiqaya (Qapıcıq dağı) kimi qayaüstü rəsmləri ilə məşhur olan ərazilərin tanıdılmasını vacib sayır: “Həmçinin Nehrəm dağları ərazisi möhtəşəm təbiətə və tarixi abidələrə malik məkandır”.

### Şəhidlərin xatirəsinə zirvə yürüşü

Qapıcıq dağına yanvarın 19-dan 20-nə keçən gecə, -30 dərəcə şaxtada çadır quraraq şəhidlərin xatirəsinə etdiyi zirvə yürüşü onun fəaliyyətində xüsusi yer tutur. “Bu yürüş həm fiziki, həm də mənəvi baxımdan sınaq idi”, — deyir.

### “Sevinirəm ki, şagirdlərimə örnək ola bilirəm”

“Həvəs və istək hər şeyə qadirdir”, — deyir Hüseyn müəllim.

Keçmiş şagirdləri onu həmişə belə tanıyıblar: “İndi də hər uğurumu alqışlayır — sevinirlər. Sevinirəm ki, şagirdlərimdən ayrılsam da, onlara örnək ola bilirəm”.

“Əsas meyar tanımaq və tanıtmaqdır”, — deyir Hüseyn Cəfərov. Onun üçün məkan fərqli ola bilər — istər sinif otağı, istər dağ zirvəsi. Amma məqsəd dəyişmir: öyrətmək, göstərmək, sevdirmək.

**Aytən YUSİFOVA,**
**Naxçıvan Muxtar Respublikası üzrə təmsilçi**

# Dövlət Proqramı məzunları

Uğur yolu

**"Azərbaycan müəllimi" "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2028-ci illər üçün Dövlət Proqramı" çərçivəsində xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil alaraq ölkəyə qayıdan məzunlarla bağlı silsilə yazılarını davam etdirir. "Regionlarda təhsilin inkişafı" mövzusunda növbəti müsahibimiz xaricdə təhsil alıb paytaxtda deyil, məhz regionda çalışaraq biliklərini bölgə gəncləri ilə bölüşən Dürrə Hacıyevadır. D.Hacıyevanın "Uğur hekayəsi"ni oxucularla paylaşırıq.**




***Tanıtım.*** **Dürrə Hacıyeva Famil qızı 12 yanvar 1997-ci ildə Zaqatala rayonunun ucqar Kəpənəkçi kəndində doğulub. 2014-cü ildə şəhid Sərdar Kərimov adına Kəpənəkçi kənd tam orta məktəbini bitirib, elə həmin ildə yüksək balla Azərbaycan Dillər Universitetinin "İngilis dili müəllimliyi" ixtisasına dövlət sifarişi əsasında qəbul olub. 2018-ci ildə ali məktəb təhsilini başa vuraraq 5 il əmək fəaliyyəti ilə məşğul olub. Daha sonra 2022-2024-cü illərdə "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarında dair 2022-2028-ci illər üçün Dövlət Proqramı" çərçivəsində Böyük Birtaniya və Şimali İrlandiya Krallığının nüfuzlu Stratklayd Universitetinin "Təhsil tədqiqatları" ixtisası üzrə magistr dərəcəsi alıb. Hazırda Zaqatala Dövlət İdarəetmə və Texnologiya Kollecinin direktoru vəzifəsində çalışır.**




## Böyük Britaniyanın Stratklayd Universitetinin məzunu Dürrə Hacıyeva:

# "Region təhsilinə töhfə vermək mənim arzum olub"

**"Mən streotiplərin təhsil vasitəsilə qırılmasına inanmışam"**

*— Xaricdə "Təhsil tədqiqatları" sahəsini seçməyiniz nə ilə əlaqədar idi?*

— Bu ixtisası seçməyim bu sistemi anlamaq, sistemdəki boşluqların düzəldilməsinə töhfə verə bilmək və bu sahədəki müəyyən stereotipləri qırmaq istəyimdən irəli gəlirdi. Məni həmişə bu suallar düşündürüb: Niyə eyni ölkədə fərqli məktəblərdə oxuyan iki şagirdin gələcək imkanları bu qədər fərqlənir? Niyə bəzi istedadlar mühit səbəbilə itib gedir? Niyə stereotiplər — "region məktəbi zəifdir", "qızlar yalnız bu sahədə təhsil ala bilər" kimi yanaşmalar hələ də qərarları formalaşdırır? Təhsil tədqiqatları ixtisası məhz bu sualların cavabını axtarmağa imkan verir. Bu sahə yalnız dərs metodikasını deyil, təhsildə liderliyi, təhsil müəssisələrinin inkişaf strategiyalarını, təhsil siyasətinin formalaşmasını və təhlilini, təhsilin qloballaşma prosesində rolunu, sosial ədalət və bərabər imkanlar prinsiplərini əhatə edir. Mən stereotiplərin təhsil vasitəsilə qırılmasına inanmışam. Mənə görə ən güclü dəyişiklik sinif otağında yox, strategiya masasının arxasında başlayır. Çünki bir qərar yüzlərlə müəllimə, minlərlə tələbəyə təsir edir.

Əlbəttə, bu təhsil mənə təkcə akademik bilik yox, bir çox bacarıqlar da qazandırıb. Məsələn, daha strateji düşünərək problemi yalnız səthdə deyil, struktur səviyyədə analiz etmək, tək bir layihə yox, davamlı mexanizm yaratmaq və təhsili statistik göstəricidən daha çox insan taleləri üzərindən dəyərləndirərək insan mərkəzli yanaşmaya istiqamətlənmək.

**"Regionda çalışmaq mənim üçün motivasiya mənbəyidir"**

*— Britaniyada təhsili başa vurub, paytaxtda deyil, regionda işləməyə qərar verdiniz. Bu nə ilə bağlı idi?*

— Bu qərar mənim üçün təkcə karyera seçimi yox, həm də dəyər seçimi idi. Böyük Britaniyada oxuduğum müddətdə tez-tez belə bir sual verilirdi: "Sizə görə təhsildə ən böyük dəyişiklik harada baş verməlidir?". Mənim cavabım demək olar ki, həmişə eyni idi - imkanın ən az olduğu yerdə. Mən o anda anlayırdım ki, bu sual mənim həm şəxsi hekayəmlə, həm də peşəkar təcrübəmlə üst-üstə düşür: Mən çox zəif infrastruktura və məhdud imkanlara malik ucqar kənd məktəbində təhsil almışam və universitetə elə buradan qəbul olmuşam. Region təhsilinə töhfə vermək mənim arzum olub. Hətta magistr dissertasiyamın mövzusunu da "Azərbaycanın uzaq regionlarında təhsilə əlçatanlıq" mövzusuna həsr etmişəm. Digər tərəfdən Birləşmiş Millətlər Təşkilatında çalışdığım dövrdə regionlarda və icmalarda inkişaf layihələrinin içində olmuşam və təcrübədən keçirmişəm ki, dayanıqlı inkişaf yalnız infrastruktur və ya iqtisadi layihələrlə məhdudlaşmır və bu inkişaf niyə regionlarda olmasın?

Britaniyada təhsilimi başa vurduqdan sonra paytaxtda qalmaq və daha komfortlu bir mühit seçmək, əlbəttə, mümkün idi. Regionda işləmək daha çətindir. İnfrastruktur problemləri və resurs çatışmazlığı var. Bəzən motivasiya aşağı olur. Mən tələbələrlə mütəmadi ünsiyyətdə oluram və düşünürəm ki, bu gənclərin bir qismi paytaxta getmək imkanı olmayan, amma potensialı yüksək olan tələbələrdir. Əgər biz onlara burada keyfiyyətli təhsil və inkişaf mühiti yarada bilsək onların həyat trayektoriyasını dəyişə bilərik. Və bu, məni həqiqətən xoşbəxt edir.

Regiona qayıtmaq mənim üçün bir növ borcun ödənilməsi idi. Mən bu torpaqlarda böyümüşəm. İndi isə burada təhsilin keyfiyyətini artırmaq üçün çalışmaq mənim üçün həm qürur, həm də motivasiya mənbəyidir.

*— Bu qərarınız ailədə, yaxınlarınız arasında necə qarşılandı?*

— Səmimi desəm, qərarım hər kəs üçün gözlənilən deyildi və hətta özüm üçün də. Bu qərar böyük cəsarət tələb edirdi: mən sosial



çevrəmi, dostlarımı və bir çox şeyi paytaxtda qoyub regiona gedəcəkdim. Yaxın çevrəm düşünürdü ki, Böyük Britaniyada təhsil almış biri kimi paytaxtda və ya beynəlxalq qurumlarda işləmək daha məntiqli olar: Daha stabil, daha sosial və daha prestijli.

Onların narahatlığını anlayırdım. Çünki regionda işləmək həm daha çox məsuliyyət, həm də daha çox çətinlik deməkdir. Lakin çox keçmədən nəticələr görünməyə başladı. Kollecdə gedən müsbət dəyişikliklər, yeni layihələr, görülən işlərin geniş kütləyə çatması qərarımın düzgünlüyünün sübutu oldu. İndi onlar mənim regionda çalışmağımla fəxr edirlər. Elə mən də.

**"İnkişaf yalnız akademik nəticə deyil"**

*— Kollecdə əmək fəaliyyətinə başlayarkən "nədən başlamalı" kimi bir sualla qarşılaşdınızmı və nədən başladınız?*

— Kollecə ilk dəfə rəhbər kimi daxil olduğum günü çox yaxşı xatırlayıram. Köhnə binalar, uzun müddət sistemli yanaşma görməmiş struktur. Fiziki infrastrukturun vəziyyəti açıq şəkildə zəif idi. Və qərar verdim ki, dəyişiklik paralel getməlidir: həm fiziki, həm də mədəni.

**İlk mərhələdə 3 istiqamətdə analiz apardım:**

1. *Akademik vəziyyət — dərs planlaşdırması, imtahan nəticələri, tələbələrin dərsə hazırlıq səviyyəsi;*
2. *İntizam və daxili mühit — tələbələrin davamiyyəti, müəllim-tələbə münasibətləri, əməkdaş münasibətləri və məsuliyyət bölgüsü;*
3. *Motivasiya və institusional ruh — kollecdə "inkişaf edə bilərik" inamının olub-olmaması.*

Çıxarılan nəticələrə əsasən, qısa zamanda imtahanlara və dərs planlarına yanaşmanı dəyişdik. Pedaqoji heyətlə birlikdə dərs planlarının nəticə əsaslı hazırlanmasını tətbiq etməyə başladıq. Sadəcə mövzunun keçirilməsi yox, "tələbə nə bacaracaq?" sualını əsas götürdük. Əlbəttə, inkişaf yalnız akademik nəticə deyil. Tələbələrin ünsiyyət bacarığı, sosial-emosional vəziyyəti, məsuliyyət hissi üzərində sistemli işə başladıq. Daxili intizam qaydaları yeniləndi. Bu dəyişiklik əvvəlcə çətin görünsə də, zamanla kollecdə daha sağlam mühit formalaşdırdı. Nəinki kollecdə, rayon səviyyəsində sosial tədbirlərin sayı artırıldı, tələbə yarmarkaları təşkil edildi. Məqsəd yalnız dərs deyil, özünüifadə və ictimai iştirak imkanları yaratmaq idi. Çünki motivasiya yalnız qiymətlə ölçülmür.

**"İnnovativ yanaşmaları tətbiq etməyə çalışıram"**

*— Britaniyada təhsil dövründə aldığınız təcrübələrin region təhsilində tətbiqi barədə nə deyərdiniz?*

— Britaniyada təhsil aldığım dövrdə öyrəndiyim əsas şeylərdən biri yeni bir sistemi tətbiq etməzdən əvvəl problemin harada olduğunu, səbəbin nə olduğunu və nəticəni necə ölçmək lazım olduğunu analiz etməkdir. Regiona qayıtdıqdan sonra innovativ yanaşmaları tətbiq etməyə çalışıram. Lakin tam şəkildə tətbiq etmək, əlbəttə, mümkün deyil. Çünki resurs, mühit və kontekst fərqlidir və hər kəs yeniliyə açıq olmur. Amma adaptasiya etmək mümkündür. Sistemin tələbəyönümlü təhsil sisteminə keçirilməsi artıq öz nəticəsini göstərməyə başlayıb. Bu, tələbələrin sosial aktivliklərində, təşəbbüskarlıqlarında və dərsə hazırlıqlarında özünü göstərir. Hazırda kollecimizdə əsaslı təmir işləri aparılır, resurslar yenilənir. Bu dəstək üçün dövlətimizə minnətdarıq. Bu dəstək bizim üçün böyük təməldir. Çünki yaxşı fiziki mühit insanın özünə olan münasibətini dəyişir. Bu gün kollecimizdə artıq əhəmiyyətli dərəcədə dəyişiklik hiss olunur: tələbələr daha çox sual verir, müəllimlər təşəbbüs göstərir. Təşəbbüs göstərdiyim "Bir müəllimin sirri" layihəsi müəllim əməyini ön plana çıxarır, onların fəaliyyətini ictimailəşdiririk.

Eyni zamanda, kollecin reputasiyasının gücləndirilməsi, tanınması və burada görülən işlərin daha geniş ictimaiyyətə çatdırılması istiqamətində əhəmiyyətli addımlar atırıq. Ölkə səviyyəsində bir sıra reputasiyalı qurumlarla əməkdaşlığa başlamışıq, xarici təhsil müəssisələri ilə əməkdaşlıqlar isə yaxın zamanda gözlənilir. Sosial media hesablarımız yenilənib, kollecin ilk loqosu yaradılıb.

**"Biz əmək bazarına bacarıqlı kadrlar göndərməyi hədəfləyirik"**

*— Kollecin innovativ təhsil mühitinə çevrilməsi yolunda nə kimi təşəbbüsləriniz vardır? "Rəqəmsal Kollec" və "Smart Kollec" layihələri barədə nə deyərdiniz?*

— Bizim məqsədimiz innovativ görünmək deyil, innovativ düşünə bilən nəsil formalaşdırmaqdır. Hazırda həyata keçirilən "Rəqəmsal Kollec" layihəsi bir neçə alt komponenti əhatə edir: onların bir qismi artıq tətbiq olunub, digərləri isə ardıcıllıqla tətbiq olunacaqdır. İlk komponent olaraq "Rəqəmsal bacarıqlar" adlı ödənişsiz kurslara başlamışıq və payız semestri üçün artıq yekunlaşıb. Bu kursda tələbələrimiz həm kompüterdə lazımi proqramlarda çalışmağı, həm də müxtəlif süni intellekt alətlərində işləməyi öyrənir. Kursların sonunda ən yaxşı nəticə göstərən tələbələr növbəti mərhələdə təlimçi köməkçisi olaraq seçilirlər və bu da layihədə davamlılığı təmin edir. Bu layihə çərçivəsində həm də "E-library" marafonu, "Rəqəmsal könüllülər" qrupu və "Tech-club" icması komponentləri ar-




dıcıl şəkildə fəaliyyət göstərəcək. "Rəqəmsal Kollec" təşəbbüsünün əsas məqsədi yalnız tələbələrə kompüter bacarıqları öyrətmək deyil, onları rəqəmsal mühitdə düşünə, araşdıra və istehsal edə bilən fərdlərə çevirməkdir. Hazırda tədrisdə tətbiq etdiyimiz yeni yanaşmalar tələbədən daha çox müstəqil araşdırma, təqdimat hazırlığı, layihə əsaslı tapşırıqlar və sərbəst işlər tələb edir. Bu isə rəqəmsal alətlərlə işləmə bacarığını zəruri kompetensiyaya çevirir. Bu bacarıqlar yalnız kollec mərhələsi üçün deyil, ali təhsil pilləsində də onların rəqabət qabiliyyətini artıracaq.

Digər mühüm istiqamət əmək bazarı ilə bağlıdır. Müasir dövrdə işə qəbul zamanı yalnız diplom deyil, səriştə və bacarıq əsas götürülür. Rəqəmsal kompetensiya artıq baza tələbi hesab olunur. Biz əmək bazarına bacarıqlı və uyğunlaşa bilən kadrlar göndərməyi hədəfləyirik. Strateji baxımdan isə məqsəd daha genişdir: Əgər kollecimiz ardıcıl şəkildə güclü, rəqəmsal bacarıqlara malik məzunlar buraxarsa və bu məzunlar iş həyatında uğur qazanarsa, zamanla bu, gələcək məzunların işlə təmin olunma ehtimalını daha da artıracaq və müəssisənin institusional imicini gücləndirəcək. Beləliklə, "Rəqəmsal Kollec" layihəsi qısamüddətli kurs təşəbbüsü deyil, uzunmüddətli reputasiya və keyfiyyət strategiyasının bir hissəsidir.

"Smart kollec" layihəsinə gəldikdə isə bu təşəbbüs çərçivəsində əsas diqqət layihə əsaslı öyrənmə, STEAM əsaslı dərslər və tətbiqi bacarıqların inkişafına yönəlib. Bu təşəbbüs tələbələrin "Scratch" platforması və "Makey Makey Kit" adlı innovativ alətlərlə innovativ layihələr hazırlamasını ehtiva edir. Bu yanaşma problem həlletmə bacarığını inkişaf etdirir, komanda işini gücləndirir, analitik və yaradıcı düşüncəni təşviq edir. Ən vacibi isə tələbə artıq passiv dinləyici olmur. O, layihə qurur, test edir, səhv edir və düzəldir. Bu isə real həyat bacarığıdır. Bu yanaşma uzunmüddətli perspektivdə kollecin tədris modelini daha çevik və əmək bazarına uyğun hala gətirəcək.

**"Əsas priotet təhsil müəssisəsini inkişaf ekosisteminə çevirməkdir"**

*— Müasir dövrdə təhsil çox ciddi, yeni çağırışlarla zəngindir. Bu baxımdan kollecin tədris planları və ixtisaslarında yeniləmələr varmı və ya gözlənilirmi? Qarşıdakı dövrdə kollecin yeniləşən və gənclər üçün cəlbedici bir mühitə çevrilməsi istiqamətində nə kimi təşəbbüs və planlarınız vardır?*

— Hesab edirəm ki, əsas prioritet təhsil müəssisəsini sadəcə təhsil verən müəssisə deyil, inkişaf ekosisteminə çevirməkdir. Hazırda əsas diqqət mövzu yüklü proqram modelindən bacarıq əsaslı modelə keçidə yönəlib. Bu məqsədlə hər ixtisas üzrə təlim nəticələri yenidən formalaşdırılır, nəzəri və praktik saatların balansı təhlil edilir və tətbiqi komponentin payının artırılması istiqamətində iş aparılır. Eyni zamanda sərbəst iş və layihə komponentləri tədris planında daha sistemli yer alır. Tələbənin tədqiqat aparması, təqdimat hazırlaması, problem həlli üzərində işləməsi proqramın ayrılmaz hissəsinə çevrilib. Yenilənmə prosesi yalnız məzmun səviyyəsində deyil, qiymətləndirmə mexanizmlərində də aparılır. Qiymətləndirmə artıq yalnız biliyin yoxlanılması deyil, bacarıq və tətbiq imkanlarının ölçülməsi prinsipinə uyğunlaşdırılır.

Paralel olaraq yeni ixtisasların açılması istiqamətində də sistemli iş aparılır. Bu addım yalnız akademik genişlənmə deyil, regionun sosial-iqtisadi ehtiyaclarına cavab vermək məqsədi daşıyır. Hazırda yerli biznes strukturları, xidmət sektoru və dövlət qurumlarının ehtiyacları təhlil edilir. Hansı sahələrdə kadr çatışmazlığının olması və hansı istiqamətlərdə orta ixtisaslı mütəxəssislərə real tələbatın mövcudluğu araşdırılır. Bu sualların cavabı əsasında proqramlar formalaşdırılacaq.

Eyni zamanda, gələcəkdə kollecin daha cəlbedici mühitə çevrilməsi üçün akademik, sosial və peşə yönümlü komponentlərin inteqrasiyasını gücləndirməyi planlaşdırırıq. Bu məqsədlə mentorluq mexanizmlərinin qurulması, karyera istiqamətləndirilməsi görüşlərinin təşkili və işəgötürənlərlə daha sistemli əlaqələrin yaradılması üzərində iş aparılır. Paralel olaraq tədris və imtahan sisteminin elektronlaşması istiqamətində addımların atılması planlaşdırılır.

**Oruc MUSTAFAYEV**

# BİRİNCİ TÜRKOLOJİ QURULTAY – 100



**XIX əsrin sonu - XX əsrin əvvəllərində Şuşa Azərbaycanın elm, təhsil, mədəniyyət və sənət həyatının əsas mərkəzlərindən biri olmuşdur. “Zaqafqaziyanın konservatoriyası” kimi tanınan Şuşada dini və dünyəvi məktəblər, kitabxanalar, mətbəələr, muğam evləri, xeyriyyə cəmiyyətləri, şeir və sənət məclisləri fəaliyyət göstərirdi. Açılan dünyəvi məktəblər Şuşanın maarifpərvər ziyalıları tərəfindən rəğbətlə qarşılanır, həm maddi, həm də mənəvi dəstək qazanırdı. Azərbaycanın təhsil və mədəniyyət tarixinə adını yazmış belə ziyalılardan biri də Kiyev Politexnik İnstitutunun məzunu Cəlil Məhəmmədzadədir.**



# Qurultayın təşkilatçılarından biri: Ali Pedaqoji İnstitutun direktoru Cəlil Məhəmmədzadə

## Şuşadan başlanan ömür yolu

Cəlil Məhəmməd oğlu Məhəmmədzadə (Sadıqov) 1888-ci ildə Şuşa şəhərində tacir ailəsində anadan olmuşdur. Yeddi yaşında məhəllə məktəbinə gedən Cəlil Məhəmmədzadə iki il ərzində burada oxu-yazı və hesab vərdişlərinə yiyələnmiş, daha sonra təhsilini Şuşa realni məktəbində davam etdirmişdir. O, 1898-1904-cü illərdə Şuşa realni (edadi) məktəbində, 1904-1906-cı illərdə Gəncə gimnaziyasında, 1 oktyabr 1906-cı ildən 30 iyun 1909-cu ilədək isə Kiyev şəhərində Vyaçeslav Pyotrun özəl gimnaziyasında təhsil almışdır. Həmin dövrdə ailənin bütün maddi və mənəvi çətinlikləri əsasən Cəlilin üzərinə düşmüşdü. Həyat yoldaşının, kiçik qardaşının, eləcə də atasının Kiyevə - onun yanına göndərdiyi qohumlarının qayğısına qalmaq da məhz ona həvalə olunmuşdu.

## Doğma və uzaq Kiyev

Kiyev gimnaziyasını bitirən C.Məhəmmədzadə 1909-1910-cu illərdə Müqəddəs Vladimir Universitetinin Tibb fakültəsində təhsil almışdır. Sonra o, Kiyev Politexnik İnstitutunun Kimya fakültəsinə köçürülmüş və özünün də qeyd etdiyi kimi, burada mühəndis-texnoloq ixtisasına yiyələnmişdir.Kiyevdə yaşadığı illərdə C.Məhəmmədzadə ictimai-siyasi fəallığı ilə seçilmişdir. O, “Kiyev şəhəri müsəlman tələbələr təşkilatı”nın fəal üzvlərindən biri olmuşdur. Bu təşkilatda onunla birlikdə Möhsün İsrafilbəyov (Qədirli), Hüseyn bəy Axundov, Mustafa Quliyev kimi ziyalı gənclər də səmərəli fəaliyyət göstərmişlər. O, Y.V.Çəmənzəminlinin sədri olduğu Türk Ədəmi-Mərkəziyyət Firqəsi “Müsavat”ın fəal üzvlərindən biri olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Cəlil Məhəmmədzadə Azərbaycan hökumətinin Ukraynada rəsmi nümayəndəsi kimi fəaliyyət göstərmişdir. 1920-ci ildə isə Kiyev şəhərində Persiya konsulluğunda katib vəzifəsində çalışmışdır.

## Yeni hakimiyyətlə əməkdaşlıq

1920-ci ildə Moskvada tələbə yoldaşı M.İsrafilbəyov (Qədirli) ilə görüşü C.Məhəmmədzadənin bolşevizm ideyalarına meyil göstərməsində müəyyən rol oynamışdır. Həmin dövrdə M. Qədirli Azərbaycan Xalq Hərbi Dəniz İşləri Komissarlığının siyasi idarəsinin rəisi vəzifəsində çalışırdı. Cəlil Məhəmmədzadə bu ideyaları ürəkdən qəbul etməsə də, 1920-ci ilin iyulunda Bakıya gələrək yeni sovet hakimiyyəti ilə əməkdaşlığa başlamışdır. Müsavatçı keçmişini gizlətmək məqsədilə “Sadıqov” soyadından imtina edərək “Məhəmmədzadə” soyadını qəbul etmişdir.

O, 1920-ci ilin iyunundan dekabrınadək Azərbaycan SSR Siyasi İdarəsinin nəzdində fəaliyyət göstərən Mədəniyyət şöbəsinin müdiri vəzifəsində çalışmışdır. Eyni zamanda partiya kurslarında mühazirəçi kimi çıxış edərək 120 nəfərin siyasi hazırlıq keçməsində mühüm rol oynamışdır. Rus və ukrayna dillərini mükəmməl bilən C.Məhəmmədzadə partiya-siyasi kurslarda inqilabi hərəkatın tarixi və siyasi iqtisadın əsasları üzrə mühazirələr oxumuşdur.

İctimai-siyasi fəallığı ilə seçilən Cəlil Məhəmmədzadə 17 iyul 1920-ci ildə bolşevik partiyası sıralarına qəbul edilmişdir. O, 5 dekabr 1920-ci ildən 5 noyabr 1921-ci ilədək xalq ictimai təminat komissarının şəxsi katibi vəzifəsində çalışmışdır. 1921-ci ilin fevral ayında Rusiya ilə ictimai təminat sahəsində əlaqələri genişləndirmək məqsədilə Moskvaya, oradan isə ailəsini Bakıya gətirmək üçün Kiyevə ezam olunmuşdur. Anasının Kiyevdə xəstələnməsi səbəbindən üç ay müddətində orada qalmalı olmuşdur.

Kiyevdə olduğu müddətdə də siyasi fəaliyyətdən uzaq qalmamış, əksinə, bu istiqamətdəki fəaliyyətini daha da genişləndirmişdir. 1923-cü ildə Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin Bakı şöbəsi katibinin müavini vəzifəsinə təyin edilmiş, az sonra isə Xalq Komissarları Sovetinin İşlər İdarəsində fəaliyyətini davam etdirmişdir.

## Nazir müavini, direktor və “Maarif və mədəniyyət” jurnalının redaktoru

1923-1928-ci illər C. Məhəmmədzadənin həyat və fəaliyyətinin ən məhsuldar dövrdür. 1923-cü ilin dekabrında o, Azərbaycan Xalq Maarif Komissarının müavini təyin olunub və 1928-ci ilədək bu vəzifəni icra edib. Həmin vaxt Xalq Maarif Komissarı onunla birlikdə Kiyevdə təhsil almış Mustafa Quliyev idi (o, Kiyev Müqəddəs Vladimir Universitetində oxumuşdu). XMK-nın müavini olarkən bir müddət incəsənət və məktəblər idarəsinə, daha sonra isə teatr idarəsinə rəhbərlik edib.

1924-1926-cı illərdə o, həmçinin ölkədə maarif və mədəniyyətin inkişafı, mədəni inqilabın həyata keçirilməsi, savadsızlığın ləğvi sahəsində mühüm rol oynayan “Maarif və mədəniyyət” jurnalının məsul katibi (redaktoru) kimi fəaliyyət göstərib. Onun redaktorluğu dövründə professor Fridolin və Ə.Pepinov redaksiya heyətinin üzvləri, Hacınski isə katib olub. Jurnalın 1924-cü ildə 12, 1925-ci ildə 8 və 1926-cı ildə 12 nömrəsi onun redaktorluğu ilə nəşr olunub.

Bu illərdə C.Məhəmmədzadə eyni zamanda “Azərnəşr”in direktoru, həmçinin Teatr idarəsinin sədri vəzifələrini də icra edib. 1926-cı ildə isə o, daha bir məsul vəzifəyə - Ali Pedaqoji İnstituta direktor (rektor) təyin olunub. İnstitut ADU-ya birləşdiriləndə 1928-ci ilə kimi yeni təşkil edilmiş Pedaqoji fakültəyə rəhbərlik edib.

## Latın əlifbası uğrunda mübarizə

1922-ci ildə Azərbaycan MİK-in nəzdində Yeni Əlifba Komitəsi yaradılmışdır. Komitənin əsas məqsədi dilin, yazı və oxu sisteminin sadələşdirilməsi istiqamətində aparılan islahatları təşkil etmək, eləcə də ərəb qrafikasının latın əlifbası ilə əvəz olunması prosesini elmi-metodik əsaslara uyğun şəkildə tənzimləyib həyata keçirmək idi.

Azərbaycan əlifbasının latın qrafikasına keçirilməsi uğrunda mübarizə hərəkatının formalaşdığı ilk mərhələlərdən etibarən C.Məhəmmədzadə bu prosesin fəal iştirakçılarından biri olmuş, latın əlifbasının Azərbaycan dilinin fonetik xüsusiyyətlərinə, ahəng qanunlarına və tələffüz normalarına uyğunlaşdırılması ilə bağlı aparılan müzakirələrdə fəallıq göstərmişdir.

C.Məhəmmədzadə 1925-ci il mayın 25-də keçirilən Azərbaycan müəllimlərinin birinci qurultayında XMK-nın müavini kimi çıxış edərək məktəblərdə artıq yeni latın əlifbasına keçməyin zəruri olduğunu əsaslandırmış və qurultayın bütün nümayəndələrini bu mühüm islahatı həyata keçirmək üçün fəal əməkdaşlığa çağırmışdır.

## I Türkoloji Qurultayın təşkilatçılarından biri

Azərbaycan Tədqiq və Tətöbbə Cəmiyyətinin Türkologiya bölməsinin 4 dekabr 1924-cü ildə keçirilən iclasında Türkoloji Qurultayı keçirmək üçün yaradılan Təşkilat Komissiyasının 9 nəfər üzvündən biri də C.Məhəmmədzadə olmuşdur. O, qurultayın çağırılması ilə bağlı Azərbaycan K(b)P MK-da keçirilən iclasların hamısında Təşkilat Komissiyasının üzvü kimi iştirak və çıxış edib. 1925-ci il 16 noyabr tarixli iclasında Türkoloji Qurultayın keçirilməsinin vaxtının dəqiq müəyyənləşdirilməsi ilə bağlı Azərbaycan K(b)P MK-nın katibi S.M.Kirovun təklifi ilə Moskvaya Zifeld və C.Məhəmmədzadə göndərilmişdi. O, Təşkilat Komissiyasının yerli komitə nümayəndələrinin I plenumunda və partiya fraksiyasının iclasların hamısında iştirak edib.Qurultayda mandat komissiyasına seçilib. Xalq Maarif Komissarının müavini olan C. Məhəmmədzadə qurultayda həm də Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətini təmsil etmişdir.

Birinci Türkoloji Qurultayın Nəvainin 500 illik yubileyinin keçirilməsi üzrə yaradılan komissiyaya İnqamov, Baytursun, Rəhimov, Çobanzadə, Qabibov və Lemanov ilə yanaşı Cəlil Məhəmmədzadənin adının daxil edilməsi, Özbəkistanın Xivə şəhərindən gələn türkoloq Ş.Rahimi tərəfindən ona özbək milli xalatının təqdim olunması onun ictimai-siyasi fəaliyyətinin və türk respublikalarında yüksək nüfuza malik olmasının göstəricisi hesab edilə bilər.

Qurultayın işində fəal iştirak edən C.Məhəmmədzadə qəbul edilən qətnamələrin redaktəsi məqsədilə yaradılmış 26 nəfərlik komissiyanın üzvlərindən biri olmuşdur. O, latın əsaslı yeni türk əlifbasına keçid, ədəbi dilin formalaşması, çap-nəşriyyat işinin Avropa standartlarına uyğunlaşdırılması, terminologiyadan istifadə qaydaları və ortaq türkcənin yaradılması kimi mühüm məsələlərin müzakirəsində də fəal iştirak etmişdir. Bu məqsədlə yaradılmış 5 nəfərlik xüsusi komissiyanın da üzvü olmuşdur.

Türkoloji Qurultayın 3 mart səhər iclasında Cəlil Məhəmmədzadə yeni türk əlifbası məsələsi ilə bağlı geniş məruzə etmişdir.

## I Türkoloji Qurultayda çıxış: əlifba məsələsi

C.Məhəmmədzadə qurultayda məruzəsinin əsas hissəsini rus dilində də iştirakçıların diqqətinə çatdırmışdır. O, çıxışını əlifba məsələsi üzərində quraraq demişdir: “Qurultayımız qarşısında bir əsas məsələ - əlifba məsələsi durur. Terminologiya, orfoqrafiya və ibtidai məktəblərimizdə tədris üsullarının əsas əməli məsələlərinin həlli də bundan asılıdır.”

Sonra o, ərəb əlifbasının genezisindən, yayılmasından, türk- tatar xalqlarının bu əlifbanı qəbul etməsindən bəhs etmişdir. Əsaslandırmışdır ki, ərəb əlifbası türk-tatar xalqlarının tələblərinə cavab vermədiyindən onun təkmilləşdirilməsi ilə bağlı təşəbbüslər heç bir real nəticə verməyəcək. Ərəb hərflərinin sözün əvvəlində, ortasında, sonunda və ayrılıqda fərqli şəkildə yazılması, sağdan sola yazı qaydası tədrisdə və yazıda ciddi çətinliklər yaradır. Histologiya, riyaziyyat və tibb üzrə dərsliklərin nəşrində çoxsaylı edib problemlər ortaya çıxır. Türk-tatar dillərində mövcud olan “o”, “u”, “i” səslərinin ərəb əlifbasında qarşılığının olmaması xüsusilə çətindir. Misal kimi qeyd etmişdir ki, ərəb dilində “cümə axşamı” sözünü yazmaq üçün düz on nöqtə qoyulmalıdır və nöqtələrdən biri yanlış yerləşdirilsə, söz “çərşənbə” kimi oxunacaq.

C.Məhəmmədzadənin məruzəsində əlifba sadəcə yazı sistemi kimi deyil, türk xalqlarının kütləvi savadlanması, mədəni inkişafı, elmi tərəqqisi və sosial azadlığı üçün həlledici amil kimi təqdim olunur. Məruzədə tarixi baxımdan ərəb əlifbasının türk xalqlarına yad olduğu və tarixi-siyasi məcburiyyət nəticəsində qəbul edildiyi göstərilir, fonetik cəhətdən isə bu əlifbanın türk dillərinin səs sisteminə uyğun gəlmədiyi, xüsusilə saitlərin azlığı və sətirüstü-sətiraltı işarələrin oxunu çətinləşdirdiyi vurğulanır. Qeyd olunur ki, “islah olunmuş” ərəb əlifbası da bu problemləri aradan qaldırmır, ərəb qrafikası uşağın yaş və idrak səviyyəsinə uyğun olmayan, mexaniki əzbərləməyə əsaslanan mürəkkəb sistem yaradır, eyni zamanda müasir elmin, dəqiq fənlərin, musiqi və beynəlxalq terminologiyanın tələblərinə cavab vermədiyi üçün milli elmi mühitin formalaşmasına mane olur. Bütün bunların fonunda latın əsaslı yeni türk əlifbası dilin fonetik quruluşuna tam uyğun, sadə, aydın, geniş kütlələr üçün əlçatan, savadsızlığın aradan qaldırılmasında real nəticələr verən və xalqın gələcəyini müəyyən edən strateji və tarixi seçim kimi təqdim edilir.

## Ə.Cavadın “Göygöl” şeiri və C.Məhəmmədzadənin həbs təhlükəsi

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Siyasi Sənədlər Arxivində saxlanılan materiallardan məlum olur ki, AK(b)P Nəzarət Komissiyasının 24 mart 1926-cı il tarixli iclasında Cəlil Məhəmmədzadənin “Maarif və mədəniyyət” jurnalında Əhməd Cavadın “Göygöl” şeirinin dərcinə görə məsuliyyəti məsələsi müzakirə edilmişdir. İclasın 21 saylı protokoluna əsasən, bu məsələ əvvəlcə Azərbaycan K(b)P MK katibliyinin 13 dekabr 1925-ci il tarixli iclasında baxıldıqdan sonra müvafiq materiallar xüsusi şifrə ilə Nəzarət Komissiyasına göndərilmişdir. C.Məhəmmədzadə yoxlama komissiyasına təqdim etdiyi izahatda şeirin redaksiyada iki dəfə oxunaraq müzakirə edildiyini, Əhməd Cavadın əsəri Gəncə ətrafında yerləşən və təbiəti ilə seçilən Göygöl ərazisində istirahət zamanı yazdığını, mətnin yalnız Göygölün gözəlliyinə həsr olunduğunu və bu səbəbdən çapına razılıq verdiyini bildirmişdir. Nəzarət Komissiyası “Maarif və mədəniyyət” jurnalının 1925-ci il 2 (22)-ci sayında dərc olunmuş “Göygöl” şeirini diqqətlə araşdıraraq əsərdə antisovet məzmun aşkar etmədiyinə görə işin bağlanması və arxivə verilməsi barədə qərar qəbul etmiş, bununla da Cəlil Məhəmmədzadə həbs olunmaq təhlükəsindən xilas olmuşdur.

## C.Məhəmmədzadəni repressiyadan xilas edən yeganə qüvvə: ölüm!

Cəlil Məhəmmədzadə 1932-ci ilin yanvarından ömrünün sonuna qədər Azərbaycan Mərkəzi Nəzarət Komissiyası və Fəhlə-Kəndli Müfəttişliyi sovet qurulucuğu şöbəsinin rəhbəri vəzifəsində çalışmışdır. Geniş ictimai-siyasi və mədəni-maarifçilik fəaliyyəti ilə seçilən C.Məhəmmədzadə 1922-1924-cü illərdə Azərbaycan K(b)P Şəhər Komitəsinin üzvü, 1923-1928-ci illərdə Bakı Şurasının üzvü, 1932-ci ildən isə Azərbaycan K(b)P MK Plenumu və Prezidiumunun, Azərbaycan Sovet Şuralar Cəmiyyətinin Xalq Komissarları Şurasının, habelə Xalq Maarif Komissarlığı Kollegiyasının üzvü olmuşdur.

Onu repressiya və sürgün taleyindən yalnız vaxtsız ölüm xilas etmişdir: uzun sürən xəstəlikdən sonra o, 7 iyun 1934-cü ildə, 46 yaşında Bakı şəhərində vəfat etmişdir.

## Ali Pedaqoji İnstitutun 5 illik yubileyinin təşkilatçısı

Ş.Ə.Manatovdan sonra Ali Pedaqoji İnstituta Cəlil Məhəmmədzadə rəhbərlik edib. Onun direktorluğu dövründə pedaqoji ictimaiyyətin iştirakı ilə Ali Pedaqoji İnstitutun ilk yubileyi keçirilmiş, bu münasibətlə “Azərbaycan Ali Pedaqoji İnstitutu (Beş illik və üçüncü buraxılış münasibətilə)” adlı kitab 1 nəşr olunmuşdur. Nəşr institutun direktoru Cəlil Məhəmmədzadənin “Tədris və tərbiyə - 5 il” məqaləsi ilə açılır. C.Məhəmmədzadənin Ali Pedaqoji İnstitutun fəaliyyətinə dair geniş məqaləsi “Mədəniyyət və maarif” jurnalının 1926-cı ilin 5-6-cı saylarında dərc olunmuş, burada institut əməkdaşlarının şəkilləri də verilmişdir. Çoxşaxəli ictimai-siyasi və pedaqoji fəaliyyəti ilə seçilən C.Məhəmmədzadə 1920-ci illərdə Azərbaycanda mədəni həyatın inkişafında mühüm rol oynamış, milli ziyalıların öncüllərindən biri olmuşdur. 1929-1932-ci illərdə O, Gəncə dairə partiya komitəsində təşkilat şöbəsinin müdiri kimi şəhərdə aparılan tikinti və yenidənqurma işlərinə rəhbərlik etmiş, sonralar isə Azərbaycan K(b)P MK-nın sosial-mədəni qrupunun rəhbəri olmuşdur.

**Fərrux RÜSTƏMOV,**
**ADPU-nun İbtidai təhsilin pedaqogikası kafedrasının müdiri, pedaqoji elmlər doktoru, professor, Əməkdar elm xadimi**





# “Müəllimin pedaqoji gündəliyi”



## Azərbaycan Gənc Müəllimlər Assosiasiyası ilə birgə layihə

# Səhvdən qorxmadan öyrənmək

**Mənim üçün dərsdə əsas məqsəd hər bir şagirdin öz səsini tapıb onu inamla ifadə etməsidir. Bir neçə sinifdə coğrafiya dərsi keçdiyim üçün hər bir şagirdə fərdi diqqət yetirmək imkanı yaranır. Bu şəraitdə mən, əsasən, sual-cavab, xırda oyunlar, praktiki tapşırıqlar və fərdi işlər kimi interaktiv üsullardan istifadə edirəm.**



Təcrübəm göstərir ki, şagirdlər klassik yoxlama suallarından çəkinir və səhv cavab verməkdən tərəddüd edirlər. Buna görə sualları dialoqa açıq, maraq oyadan və gündəlik həyatla bağlı formada təqdim edirəm. Məsələn, coğrafiya dərsində “Sizcə, bu regionun iqlimi əhalinin həyat tərzinə necə təsir edir?” sualı şagirdlərin fikirlərini sərbəst ifadə etməsinə imkan yaradır.

Oyunlar şagirdlərin diqqətini cəlb etmək və enerjisini artırmaq üçün əvəzsizdir. Lakin oyun ilə dərs arasında balansı qorumaq vacibdir; şagirdlər həm öyrənir, həm də dərs prosesindən uzaqlaşmadan iştirak edirlər. Praktiki tapşırıqlar, məsələn, regionun coğrafi xüsusiyyətlərini əks etdirən xəritə layihəsi hazırlamaq, şagirdlərin öyrəndiklərini praktik şəkildə tətbiq etməsinə və nəticəni dərhal görməsinə imkan verir. Bu yanaşma yalnız qiymətləndirmə üçün deyil, öyrənmənin özü üçün işləmək mədəniyyətini formalaşdırır.

Fərdi işi, əsasən, ev tapşırığı və ya dərsin yekun hissəsində tətbiq edirəm. Bu tapşırıqlar mənə hər bir şagirdin hansı məqamı dəqiq başa düşdüyünü və harada çətinlik çəkdiyini göstərir. Eyni zamanda şagird öyrəndikləri ilə bacarığı arasındakı boşluğu özü qiymətləndirə bilir.

Metodların tətbiqi zamanı ən böyük çətinliklər şagirdlərin mühitindən və ailədən gələn nəticəyə yönəlik təzyiqdən yaranır. Çox vaxt şagirdlər yalnız düzgün cavabı tapmağa diqqət yetirir, bacarıq yaratma prosesinin əhəmiyyətini anlamırlar. Dərsdə əsas məqsədim onlara səhvdən qorxmadan öyrənə biləcəkləri təhlükəsiz öyrənmə mühiti yaratmaqdır.

Təcrübə göstərir ki, şagirdləri dərsə cəlb etmək onların yaşından deyil, onlara yanaşma tərzindən asılıdır. Onlar hər biri fərqli düşünən, fərqli hiss edən fərdlərdir. Mən hər bir şagirdi fərdi şəkildə qiymətləndirir və onların şəxsiyyətini nəzərə alıram. Onları eyniləşdirməyə çalışmaq inkişafın qarşısını ala bilər. Buna görə daim müşahidə aparır, dialoq qurur və metodlarımı hər bir şagirdin ehtiyacına uyğunlaşdırıram.

Yekun olaraq, uğurlu pedaqoji yanaşmanın əsasında şagirdləri şəxsiyyət kimi qəbul etmək və onlarla həssaslıqla qurulmuş dialoq dayanır. Bu yanaşma təkcə mövzunu öyrətmir, həm də öyrənmə prosesini şagirdin öz məsuliyyəti kimi qəbul etməsinə, səhvdən çəkinmədən öyrənməsinə imkan verir.



**Mirəskər MƏMMƏDOV,**
**Cəlilabad rayonu Fətullaqışlaq kənd orta ümumtəhsil məktəbinin coğrafiya müəllimi**

# Bir abzasdan başlayan dəyişiklik:



## hiss, fikir və işıqla qurulan sinif

**Uşaqlıqdan arzum hər zaman uşaqlara nəyisə öyrətmək, başa salmaq və onların dünyasına kiçik də olsa, bir işıq tutmaq olub. Müəllim olmaq mənim üçün yalnız peşə deyil, həm də uşaqlıqdan daşıdığım həyat arzusu olub.**

Tədris prosesində mən həmişə innovasiyalara və interaktiv metodlara üstünlük verirəm. Dərslərimi uşaqların maraq və bacarıqlarını inkişaf etdirəcək şəkildə qururam və onlarla dərs zamanı olduğu kimi, dərsdən kənarda da əlaqə saxlayıram. Oxuyub-anlama bacarığının formalaşmasına dair dərslərdə tətbiq etdiyim yanaşma isə mərhələli şəkildə qurulub. Şagirdlər əvvəlcə yalnız birinci abzası oxuyurlar və dərhal kənar qeydlər aparırlar. Bu qeydlər əsas fikir, diqqəti çəkən ifadə və ya ilkin təəssürat formasında olur.

Daha sonra emosional mərhələyə keçirəm: şagirdlərə sual verirəm: “Bu mətni oxuduqdan sonra hansı hissləri yaşadın?” Cavablar fərqli olur: maraq, sevinc, narahatlıq, kədər və s. Ardınca ikinci sual - “Niyə məhz bu hiss yarandı?” verilərək şagirdin hissini mətn faktları ilə əlaqələndirməsi təmin olunur. Beləliklə, şagird mətnlə daha dərindən bağ qurur, səbəb-nəticə əlaqəsini anlamağa başlayır və reflektiv düşüncəsi inkişaf edir.

Ümumiyyətlə, oxuyub-anlama prosesini yalnız ümumi sinif işi kimi deyil, həm də fərdi və əməkdaşlığa əsaslanan şəkildə təşkil edirəm. Şagirdlər əvvəlcə mətni fərdi şəkildə oxuyur, öz qeydlərini aparır və şəxsi yanaşmalarını formalaşdırırlar. Bu mərhələdə hər bir uşaq mətnlə təkbətək qalır, öz düşüncə xəttini qurur və daxili dialoq yaşayır. Daha sonra isə “cütlərlə paylaş” üsulundan istifadə edərək şagirdləri ikili qruplara bölürəm. Onlar qeydlərini, hisslərini və nəticələrini bir-biri ilə müzakirə edir, fərqli baxış bucaqları ilə tanış olurlar. Bu yanaşma həm öz fikrini əsaslandırmaq, həm də qarşı tərəfi dinləmək bacarığını inkişaf etdirir. Nəticədə şagirdlər yalnız mətni anlamaqla kifayətlənmir, həm də əməkdaşlıq, ünsiyyət və tənqidi düşünmə bacarıqlarını gücləndirirlər.

Bu mərhələlər sayəsində şagirdlər oxu sürətini artırır, mətnə şüurlu şəkildə yanaşır və analiz bacarıqları güclənir. Həm də onlar öz fikirlərini açıq ifadə etməyi, bir-birini dinləməyi və sinifdə birgə öyrənməyin əhəmiyyətini öyrənirlər.

Mənim üçün müəllimlik sadəcə bir peşə deyil, uşaqların gələcəyinə sərmayə qoymaqdır. Hər gün dərslərimdə onların bilik dünyasına yeni rənglər qatmaq, təhsili maraqlı və səmərəli etmək üçün çalışıram.



**Allahverdi ABDULLAYEV,**
**Bakı şəhəri 87 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimi**

# Balaca qızın böyük yolu

**Müəllimlik yalnız bilik ötürməkdən ibarət deyil. Bu, müşahidə, səbr, refleksiya və hər gün yenidən öyrənmə tələb edən bir prosesdir. Xüsusi ehtiyaclı uşaqlarla işlədikcə hər bir addımın nə qədər dəyərli olduğunu daha dərindən anlayırsan. Hər baxışın, hər kiçik irəliləyişin, hər cümlənin arxasında böyük zəhmət və inam dayanır. Müəllimlik bəzən səssiz mübarizə, bəzən uzunmüddətli gözlənti, bəzən isə bir uşağın gözündə yaranan işıqdır.**



## Kiçik addımlar böyük nailiyyətlərə çevrilir

Mənim üçün ən unudulmaz təcrübələrdən biri birinci sinifdə oxuyan bir şagirdimlə bağlıdır. O, 1-ci sinfə gəldikdə lüğət tərkibi çox məhdud idi, demək olar ki, yox səviyyəsindəydi və istifadə etdiyi sözlər əsasən türkcə idi. Şagirdimdə yüngül dərəcədə autizm spektr pozuntusu var idi. İlk günlərdə hər yeni söz, hər yeni anlayış onun üçün böyük səy tələb edirdi. O zaman valideynlərinə dediyim “Biz bacaracağıq” sözləri sadəcə bir ümid idi. Bu ümidin arxasında isə planlı, sistemli və səbirli bir yol dayanırdı.

Qeyd olunan nəticələr uzunmüddətli və fərdi şəkildə qurulmuş təlim prosesinin nəticəsidir. İş zamanı əsas diqqət dərslərin strukturlaşdırılmasına, vizual dəstəkdən istifadəyə və bacarıqların tədricən inkişafına yönəldilmişdi. Anlayışların öyrədilməsində konkret—vizual—abstrakt yanaşmadan (CVA modeli) istifadə olunurdu. Əvvəl uşağın gündəlik həyatda rastlaşdığı real əşyalarla işlənir, daha sonra bu anlayışlar şəkil və simvollarla möhkəmləndirilir, sonda isə abstrakt formada tətbiq edilirdi. Riyazi bacarıqların formalaşması üçün qısa və təkrarlanan tapşırıqlar, oyun elementləri və gündəlik həyatda istifadə oluna bilən nümunələrdən yararlanılırdı. Bütün proses boyu əsas məqsəd uşağın öz tempində irəliləməsi, hər kiçik uğurun dəstəklənməsi və öyrəndiklərini real həyatla əlaqələndirə bilməsi idi. Bu yanaşma həm akademik bacarıqların, həm də uşağın özünə inamının mərhələli şəkildə formalaşmasına şərait yaratdı.

İndi isə o şagird 5-ci sinifdə oxuyur. Riyazi əməliyyatları böyük dəqiqliklə yerinə yetirir, şeirlər deyir, yazıları və mətni təhlil edir. Hər ona baxanda gözümdə o balaca qız canlanır — ilk günlərdəki cəsarətsiz, lakin maraqlı və səy göstərən qız. Onun nailiyyətləri mənə bir daha göstərir ki, müəllimin verdiyi inam və dəstək sözləri zamanla əməldə təsdiqini tapır. Düzgün metod, ardıcıl yanaşma və emosional dəstək bir araya gəldikdə nəticə qaçılmaz olur.

Pedaqoji gündəlik isə bu cür hekayələrin qeyd olunmasını və refleksiya edilməsini təmin edən ən qiymətli vasitələrdən biridir. Hər günün sonunda yazılan qeydlər təkcə şagirdin inkişafını izləməyə deyil, həm də müəllimin öz peşəkar yolunu görməsinə imkan yaradır. Bu gündəliklər vasitəsilə biz səssiz qalan təcrübələri görünən edirik, metodlarımızı təhlil edir, növbəti addımlarımızı daha uğurlu planlaşdırırıq. Reflektiv düşünmə mədəniyyəti məhz bu cür praktik müşahidələr və səmimi qeydlər üzərində formalaşır.

Bu şagirdim mənə göstərdi ki, hətta kiçik addımlar böyük nailiyyətlərə çevrilir və hər uşağın potensialı yalnız ona inanan bir müəllim tərəfindən ortaya çıxarıla bilər. Müəllim üçün ən böyük mükafat illər sonra öz ayaqları üzərində inamla dayanan bir şagirdi görməkdir. Və hər dəfə belə bir uğur hekayəsi yaşandıqca “Biz bacaracağıq” sözləri sadəcə ümid yox, sübut olunmuş həqiqətə çevrilir.



**Tamara NOVRUZOVA,**
**Balakən rayon inteqrasiya təlimli internat tipli gimnaziyada xüsusi pedaqoq**

# Sumqayıt məktəblisi turnirin qalibi oldu




## Vətən müharibəsi şəhidi Mehrab Niftəliyevin qızı Ləman Niftəliyeva növbəti böyük uğura imza atıb

**Sumqayıt şəhər 34 nömrəli tam orta ümumtəhsil məktəbinin 10-cu sinif şagirdi, Vətən müharibəsi şəhidi Mehrab Niftəliyevin qızı Ləman Niftəliyeva cüdo üzrə növbəti uğura imza atıb.**

8 mart tarixində U-17 yeniyetmələr arasında keçirilən "İstedadların seçimi" yarışının II turunda - 44 kq çəki dərəcəsində iştirak edən Ləman Niftəliyeva bütün rəqiblərini üstələyib və I yerə layiq görülüb. Ləman Niftəliyeva Sumqayıt şəhər 2 nömrəli UGİŞM-in yetirməsidir.

Qeyd edək ki, "İstedadların seçimi" turnirinin keçirilməsində məqsəd milli komanda üçün perspektivli idmançıların müəyyənləşdirilməsi, sağlam idman bazasının formalaşdırılmasıdır.

Turnirin iki turunun yekun reytinqində hər çəki dərəcəsi üzrə ilk 4 pillədə qərarlaşan idmançılar "Gələcəyin ümidləri" təlim proqramına cəlb olunacaqlar.

**Lamiyyə ƏLİMƏRDANOVA,**
**Abşeron-Xızı və Quba-Xaçmaz üzrə regional təmsilçi**

**Uşaqlarda bəzi fiziki qüsurların olması tibb sahəsinin tədqiqat obyekti olmaqla bərabər təhsil sahəsində də ən aktual məsələlər sırasındadır. Tədqiqatçı elm adamlarının fikrincə, bunun səbəblərinin araşdırılıb ortadan qaldırılmasının mümkünlüyü ümidvericidir. Bu gün respublikamızda həmin uşaqların sağlam uşaqlarla birgə təhsil alması, onların cəmiyyətə adaptasiyası üçün xüsusi məktəblər, reabilitasiya mərkəzləri fəaliyyət göstərməkdədir. Həmin məktəblərdə fiziki qüsurlu uşaqların təlim-tərbiyəsi ilə xeyli sayda pedaqoq, loqoped və defektoloqlar məşğul olmaqdadır.**

# Fiziki qüsurlu uşaqlarla iş

## Peşəkar hazırlıq və müasir yanaşmalar

Onların arasında ADPU-nun nəzdində fəaliyyət göstərən Azərbaycan Dövlət Pedaqoji Kollecinin "Ailə və ev təhsili" ixtisasından məzun olmuş tələbələr də var. Bu ixtisas artıq uzun illərdir fəaliyyət göstərir. Bizim vəzifəmiz xüsusi qayğıya ehtiyacı olan uşaqlarla işləmək üçün mütəxəssis hazırlamaqdır. Bu mütəxəssislərin hazırlanması çoxşaxəli və məsuliyyətli bir prosesdir. Bu prosesdə həm nəzəri, həm də praktiki biliklərin uyğun balansda verilməsi mühüm əhəmiyyət kəsb edir. Məzunlarımız həm müxtəlif mərkəzlərdə, həm də ev şəraitində fiziki qüsurlu uşaqların təhsil hüququnu təmin etmək, onların cəmiyyətə inteqrasiyasına dəstək olmaq kimi vəzifələri daşıyırlar. İxtisas eyni zamanda tələbələrə fərdi təlim metodları, psixopedaqoji yanaşmalar və xüsusi qayğı tələb edən uşaqlarla işləmək üçün zəruri etik və insani dəyərləri aşılayır. Bu sahənin mütəxəssisləri yalnız peşəkar deyil, eyni zamanda empatik, yaradıcı və pedaqoji baxımdan hazırlıqlı olmalı, uşaqların potensialını üzə çıxarmaq qabiliyyəti daşımalıdırlar. Tədqiqatlar göstərir ki, fiziki qüsurlu uşaqların inkişafında individuallaşdırılmış tədris metodları, müasir texnologiyaların tətbiqi və psixoloji dəstək həlledici rol oynayır. Məqsəd cəmiyyətin sosial ədalət prinsipinə uyğun olaraq inklüziv təhsili təşviq etmək və bu sahəni keyfiyyətli mütəxəssislərlə təmin etmək, fiziki qüsurlu uşaqların ev şəraitində keyfiyyətli və bərabərhüquqlu təhsil almasını təmin edən, insan hüquqları və pedaqoji etika prinsiplərinə əsaslanan, qabaqcıl və nümunəvi bir təhsil modeli formalaşdırmaqdır. Bu gün kollecimizdə artıq bu təhsil modelinə uyğun olaraq tələbələrin zəruri vərdişlərə və bacarıqlara yiyələnmələri üçün hər cür şərait mövcuddur. Üçillik təhsil dövründə onlara lazımi nəzəri biliklər və bacarıqlar mənimsədilir. Sonuncu kursda tələbələr məktəb və məktəbəqədər təhsil müəssisələrində təcrübə keçərək praktik vərdişlərə yiyələnirlər. Bu səriştələrin və bacarıqların aşılanması üçün kollecdə çoxsaylı pedaqoji heyət çalışır. Onlar arasında uzun illik təcrübəyə malik psixoloqlar, müəllim və köməkçi heyət fəaliyyət göstərir. Tədris ili ərzində uyğun profilli müəssisələrdən püxtələşmiş mütəxəssislər kollecə dəvət olunaraq tələbələrlə görüşləri təşkil olunur, faydalı tövsiyələri dinlənilir.



Eyni zamanda, beynəlxalq təşkilatların - xüsusilə UNESCO və UNICEF-in bu sahədəki tövsiyələri də inklüziv təhsilin qurulmasına və kadr hazırlığına mühüm təsir göstərir. Təcrübə dövründə tələbələr xüsusi qayğıya ehtiyacı olan uşaqlarla bilavasitə təmasda olur və onların yaxın dostlarına çevrilirlər. Belə uşaqlar daha çox cəmiyyət içərisində olmalı, evə qapadılmamalıdırlar. Eyni zamanda onlarla fərdi surətdə də təmasda olan pedaqoq olmalıdır. Təbii ki, həmin pedaqoq və ya tərbiyəçinin şəxsi keyfiyyəti, bilik və bacarığı da burada böyük əhəmiyyət kəsb edir. Azərbaycan Dövlət Pedaqoji Kollecinin bu ixtisasdan məzun olmuş tələbələri hər zaman etimadımızı doğruldublar. Təcrübədə olduqları müddətdə pedaqoji məharətlərinə görə fərqlənən tələbələrimizin bir hissəsi həmin mərkəzlərdə işlə təmin olunublar. Bir çox hallarda isə valideynlərin istəyi ilə ev şəraitində bu uşaqlarla fərdi məşğuliyyətə cəlb olunublar. Bu gün müəllimlərin davamlı təlimlərə cəlb olunması və təcrübə mübadiləsinin təşviqi bu sahədə keyfiyyətin yüksəldilməsinə yardımçı ola bilir. Müasir texnologiyaların tədrisə inteqrasiyası, (məsələn, alternativ kommunikasiya vasitələri) müəllimlərin sosial-emosional hazırlıq səviyyəsinin yüksəldilməsi, beynəlxalq təcrübələrin öyrənilməsi və tətbiqi qarşıda duran əsas məqsədlərimizdəndir. Kompleks və sistemli yanaşma ilə fiziki qüsurlu uşaqların inkişafında və onların cəmiyyətə inteqrasiyasında real nəticələr əldə etmək mümkündür. Bu gün hədəfimiz məhz bundan ibarətdir.

**İradə BABAYEVA,**
**ADPU-nun nəzdində ADPK-nın "Ailə və ev təhsili" şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru**


## "AZƏRBAYCAN MÜƏLLİMİ"

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov

**Reklam və elanlar:** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1052, Bakı şəhəri, Nərimanov rayonu, Fətəli xan Xoyski, 109

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan nəşriyyatı" MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya:** № 022327 **İndeks:** 0003

**Tiraj:** 7884 **Sifariş:** 369

**Məsul növbətçi:** O.Mustafayev


# Etibarsız sayılır

**Biləsuvar rayon** Səmədabad kənd tam orta ümumtəhsil məktəbi 1993-cü ildə bitirmiş Almasov Zamin Bağış oğluna verilmiş A-029247 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Şəhriyar kənd tam orta məktəbi 2003-cü ildə bitirmiş Zəfərova (Abdullayeva) Xəyalə Məcnun qızına verilmiş A-734951 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universiteti** tərəfindən 2013-cü ildə Abbasov Ülvi Şəkərəli oğluna verilmiş A-020767 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 223 nömrəli tam orta məktəbin IX sinfini 1990-cı ildə bitirmiş Hacıyeva Mehriban İbrahim qızına verilmiş 732950 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran Dövlət Humanitar Kolleci** tərəfindən 2025-ci ildə Əzizova Samirə Gülağa qızına verilmiş BB-II-003184 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Ağsu şəhər** internat tam orta ümumtəhsil məktəbi (indiki 5 nömrəli) 2011-ci ildə bitirmiş Ələkbərov Şahmar Aydın oğluna verilmiş A-039159 nömrəli tam orta təhsil haqqında atestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Xarxatan kənd tam orta məktəbi 2010-cu ildə bitirmiş Cavadova (Öztürk) Zəhra Nizami qızına verilmiş B-720644 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Laçın rayon** 18 nömrəli tam orta ümumtəhsil məktəbi 1995-ci ildə bitirmiş Məhərrəmov Rövşən Akif oğluna verilmiş A-087206 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 220 nömrəli məktəb-liseyi 2004-cü ildə bitirmiş Əhmədova Lamiyə David qızına verilmiş B-013556 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dillər Universiteti** tərəfindən 2001-ci ildə Gəncəliyeva Aybəniz Şakir qızına verilmiş MNA-005106 nömrəli fərqlənmə magistr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir Peşə Məktəbi** tərəfindən 2013-cü ildə Kazımova Əminə Kərim qızına verilmiş A-032361 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Ali Hərbi Məktəbi** tərəfindən 2013-cü ildə Zərbəliyev Ülvi Vaqif oğluna verilmiş A-000231 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Bayramlı kənd tam orta ümumtəhsil məktəbi 2001-ci ildə bitirmiş Süleymanova (Bağırova) Nərmin Əhməd qızına verilmiş A-539833 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar şəhər** 1 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2006-cı ildə bitirmiş Allahverdiyeva (Ağayeva) Zülfiyyə Şahin qızına verilmiş A-215393 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 271 nömrəli tam orta ümumtəhsil məktəbi 2011-ci ildə bitirmiş Canməmmədov Emil Oqtay oğluna verilmiş A-016885 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhəri** 82 nömrəli peşə məktəbi tərəfindən 1995-ci ildə Babayeva Xalidə Cəlal qızına verilmiş 0985165 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 7 nömrəli tam orta məktəbin IX sinfini 2001-ci ildə bitirmiş Rzayev Həbib Eyvaz oğluna verilmiş B-352813 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Yevlax rayon** Tanrıqulular kənd tam orta ümumtəhsil məktəbi 2005-ci ildə bitirmiş İmanova Günel Qafqaz qızına verilmiş 195837 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Yevlax şəhər** 2 nömrəli tam orta ümumtəhsil məktəbi 2020-ci ildə bitirmiş Rəfiyev Mirmusa Elnur oğluna verilmiş E-338630 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Göygöl şəhər** 4 nömrəli tam orta ümumtəhsil məktəbi 2019-cu ildə bitirmiş Bayramova Leyla Eldəniz qızına verilmiş E-191735 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**12 nömrəli Bakı peşə liseyi** tərəfindən 2014-cü ildə Qəniyev Seyidibad Taleh oğluna verilmiş A-057819 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 45 nömrəli tam orta ümumtəhsil məktəbi 2014-cü ildə bitirmiş Səfərli Toğrul Vasif oğluna verilmiş A-311193 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz şəhər** 92 nömrəli orta texniki peşə məktəbi tərəfindən 1990-cı ildə Cəbrayılov (Meynxard) Əhrulla İsrafil oğluna verilmiş 469411 nömrəli diplom və attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Koltəhnəli kənd tam orta məktəbin IX sinfini 2001-ci ildə bitirmiş Namazov Tofiq Bayraməli oğluna verilmiş B-021747 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Beyləqan rayon** Dünyamalılar kənd 1 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Ağayev Razi Sahib oğluna verilmiş B-046018 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2015-ci ildə Hacıyeva Aygün Nizami qızına verilmiş A-079621 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutu** (Azərbaycan Texniki Universiteti) tərəfindən 1993-cü ildə Hacıyev Azər Hacıağa oğluna verilmiş AB-I-028348 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 136 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Babayeva Zəhra Adil qızına verilmiş A-297921 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 261 nömrəli məktəb-liseyi 2019-cu ildə bitirmiş Ramazanov Rəsul Süleyman oğluna verilmiş E-210026 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 166 nömrəli məktəb-liseyin IX sinfini 2025-ci ildə bitirmiş Qurbanlı Aylin Kənan qızına verilmiş F-037479 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala şəhər** 3 nömrəli tam orta ümumtəhsil məktəbi 2006-cı ildə bitirmiş Həsənova Gülnarə Çingiz qızına verilmiş B-327715 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Yolayrıc kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2011-ci ildə bitirmiş Məmmədhəsənova Yadigar Rəhim qızına verilmiş A-079751 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Zaqatala Humanitar fənlər gimnaziyasını** (indiki Şixamir Qaflanov adına humanitar fənlər gimnaziyası) 2009-cu ildə bitirmiş Qasımov Fuad Azər oğluna verilmiş B-660808 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Saatlı rayon** Dədə Qorqud kənd tam orta ümumtəhsil məktəbi 2017-ci ildə bitirmiş Sadiqova Fidan Xalid qızına verilmiş E-064422 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 94 nömrəli tam orta ümumtəhsil məktəbi 2005-ci ildə bitirmiş Quliyeva Çinarə Şakir qızına verilmiş B-218358 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2021-ci ildə İsmayılov İsmayılşah Əliəddin oğluna verilmiş C-107945 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 57 nömrəli tam orta ümumtəhsil məktəbi 2018-ci ildə bitirmiş Məmmədov Emin Nəsib oğluna verilmiş E-148182 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəbrayıl rayon** 6 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Əlipənahov Möhsüm Seyran oğluna verilmiş A-138724 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 56 nömrəli tam orta ümumtəhsil məktəbi 1995-ci ildə bitirmiş Şirinova (Hacıyeva) Günay Fərhad qızına verilmiş A-059448 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2025-ci ildə Koroğluyev Nihad Zakir oğluna verilmiş C-263613 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Astara Pedaqoji Kolleci** tərəfindən 2016-cı ildə Hüseynova Ləman Ziyafət qızına verilmiş AA-072779 nömrəli subbakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 286 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2004-cü ildə bitirmiş Abdullayev Bəylər Aydın oğluna verilmiş A-120722 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2020-ci ildə Nərimanov Nəriman Bəhman oğluna verilmiş C-061270 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Ucar rayon** Lək kənd 1 nömrəli tam orta ümumtəhsil məktəbi 1999-cu ildə bitirmiş Məmmədova (Eyvazova) Lalə Tapdıq qızına verilmiş 313016 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad İnstitutu** tərəfindən 1997-ci ildə Sarıyev Dövlətxan Bərxudar oğluna verilmiş AB-I-061327 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**3 nömrəli Sumqayıt Peşə Liseyi** tərəfindən 2017-ci ildə Aşumov Ümid Etimad oğluna verilmiş A-091975 nömrəli diplom və A-590097 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Astara şəhər** 3 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Hacızadə Fidan Cahid qızına verilmiş A-330522 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala şəhər** 1 nömrəli tam orta ümumtəhsil məktəbi 1999-cu ildə bitirmiş Murtuzova Fatma Zahid qızına verilmiş A-390856 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Daşkəsən şəhər** İ.Nəsimi adına 1 nömrəli tam orta ümumtəhsil məktəbi 1990-cı ildə bitirmiş Ələkbərova (Həsənova) Sevinc Aydın qızına verilmiş 105048 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 34 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Babayev Şöhrət (Raul) Dadaş oğluna verilmiş A-033596 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sabirabad rayon** Nizami kənd tam orta məktəbin IX sinfini 1999-cu ildə bitirmiş Hüseynova (Kərimova) Təhminə Ramiz qızına verilmiş B-244261 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.